# Şuşa daha bir möhtəşəm tədbir ərəfəsindədir

## *Dünya Azərbaycanlıları Cıdır düzündə görüşəcəklər*




***Azərbaycan həqiqətləri haqqında, əlbəttə ki, dünya ictimaiyyətinə geniş informasiya verilməlidir. Biz dövlət olaraq bunu etməyə çalışırıq. Ancaq diaspor təşkilatlarından da çox şey asılıdır… Müstəqilliyimizin ilk illərində zəif olmağımızdan istifadə edən erməni diasporu uzun illərdir ki, dünyada bizə qarşı çox çirkin kampaniya aparır. Bu kampaniyanın tərkib hissəsi o idi ki, Azərbaycanı qaralasınlar, Azərbaycanı antidemokratik, Ermənistanı isə yazıq, "blokada" şəraitində olan ölkə kimi təqdim etsinlər, Dağlıq Qarabağın tarixi ilə bağlı yalan, uydurma məlumatları sızdırsınlar…***

***Prezident İlham Əliyevin***
***Dünya Azərbaycanlılarının IV Qurultayının***
***açılış mərasimindəki nitqindən***
***Bakı, 3 iyun 2016-cı il***

***30 ilə yaxın düşmən əsarətində qalmış torpaqlarımızın azad edilməsi insanlarımız kimi, şəhər və kəndlərimizə, dağlarımıza, dərələrimizə yeni ruh gətirir, can bəxş edir, bu yerlərə sivil həyat qaytarılır. "Xarı bülbül" festivalının keçirilməsi, Füzuli Beynəlxalq Hava Limanının istifadəyə verilməsi, Azərbaycanla Türkiyə arasında Şuşa Bəyannaməsi kimi tarixi sənədin imzalanması, Zəngilanda "ağıllı" layihələrin icra olunması, su elektrik stansiyalarının tikilməsi, möhtəşəm yol və tunellərin çəkilməsi Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarımızın yeni növraqlarındandır.***

İndi isə növbə dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın altı ildən sonra toplaşacaqları möhtəşəm tədbirin – Dünya Azərbaycanlılarının V Qurultayınındır. Soydaşlarımızın bu ali məclisinin məhz Şuşada keçirilməsi təkcə milli-mənəvi deyil, həm də siyasi, iqtisadi, hərbi və diplomatik əhəmiyyət kəsb edəcəkdir.

Kütləvi informasiya vasitələri xəbər verirlər ki, Dünya Azərbaycanlılarının V Qurultayının keçirilməsi ilə bağlı hazırlıq işləri yekunlaşmaq üzrədir. Fəxrlə vurğulanır ki, bu tədbirin müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qüdrətli ordumuzun düşmən işğalından azad etdiyi Azərbaycanın mədəniyyət paytaxtında – Şuşa şəhərində keçirilməsi nəzərdə tutulur.

Qurultayda 65 ölkədən 400 nəfərə yaxın diaspor nümayəndəsinin iştirakı gözlənilir. Gündəlik də zəngindir. Təbii ki, bütün bunlar xaricdə yaşayan soydaşlarımızın Azərbaycanın yaratdığı yeni reallıqlarla daha yaxından tanış olmasına şərait yaradacaq . Son illər yüksək təşkilatlanma və birlik nümayiş etdirən, beynəlxalq ictimaiyyətin Azərbaycan həqiqətləri ilə bağlı məlumatlandırılmasında xüsusi rol oynayan diasporumuzun Qarabağın azad edilməsindən sonra ilk böyük görüşü olacaq.

Xatırladaq ki, soydaşlarımızın Birinci qurultayı ulu öndər, müstəqil Azərbaycanın qurucusu Heydər Əliyevin təşəbbüsü ilə keçirilmişdir. Təbii ki, ötən dövrdə Azərbaycanda böyük işlər görülmüşdür, Azərbaycan daha da güclənmişdir, bizim imkanlarımız artmışdır. Bütün bu proseslərin fonunda həm ulu öndər Heydər Əliyev, həm də Prezident İlham Əliyev həmişə xaricdə yaşayan azərbaycanlıların həyatı, taleyi, işləri ilə maraqlanmışdır. Dövlətimiz daim çalışıb ki, diaspor təşkilatlarımız dəstəksiz qalmasın. Ulu öndər daim təkrarlayırdı ki, bizim xaricdəki soydaşlarımız olduqları ölkələrdə rahat yaşamalıdırlar, yaxşı mövqe tutmalıdırlar və eyni zamanda, öz doğma Vətəninə də xidmət etməlidirlər.

Bu çağırışı Prezident İlham Əliyevin dilindən də dəfələrlə eşitmişik. Dövlət başçımız Dünya Azərbaycanlılarının Bakıda – Heydər Əliyev Mərkəzində keçirilən IV Qurultayının açılış mərasimindəki nitqində demişdir ki, Azərbaycanda 15 il ərzində diaspor təşkilatları ilə qurulan iş, əlaqələr tam yeni bir vəziyyətə gətirib çıxardı: "Bu gün biz dünyanın müxtəlif yerlərində istənilən tədbiri keçirə, dünya ictimaiyyətini Azərbaycan reallıqları ilə daha da geniş şəkildə tanış edə bilərik və bunu edirik. Diaspor təşkilatlarının fəaliyyəti daim diqqət mərkəzindədir. Bu gün mən diaspor təşkilatlarının gələcək fəaliyyəti ilə bağlı bəzi fikirlərimi bildirmək istəyirəm. İlk növbədə əlbəttə, biz istəyirik ki, dünyada yaşayan azərbaycanlılar öz tarixi Vətənləri ilə əlaqələri heç vaxt kəsməsinlər. Daim əlaqədə olsunlar, Azərbaycan ilə bağlı olsunlar. Beləliklə, onlar özlərini daha da rahat hiss edəcəklər. Belə olan halda Azərbaycan dövləti onlara daha da böyük dəstək verə biləcək".

Bu, bir fakdır ki, xaricdə yaşayan azərbaycanlıların sayı milyonlarla ölçülür. Təbii ki, həmin milyonların hamısı yaşlı nəsilin nümayəndələri deyil. Ona görə də dövlət başçımız tövsiyə edir ki, yetişən gənc nəsil də Azərbaycan ilə bağlı olmalıdır. İlk növbədə, Azərbaycan dilini öyrənməlidirlər. Burada bir faktı da yada salaq ki, hazırda müxtəlif ölkələrdə 160-dan çox həftəsonu Azərbaycan dili məktəbi fəaliyyət göstərir.

Onu da əlavə edək ki, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə xaricdəki azyaşlı soydaşlarımız üçün "Qarabağ" Azərbaycan məktəblərinin təsis olunması, – bu gün həmin məktəblərdə 250-dən artıq azərbaycanlı uşaq ana dilində təhsil alır – diasporla iş istiqamətində atılan ən uğurlu addımlardandır.

Daha bir mühüm fakt ondan ibarətdir ki, bu gün xarici ölkələrdə 470-dən çox diaspor təşkilatımız var. Bu, özlüyündə onu göstərir ki, azərbaycanlıların yaşadıqları hər bir ölkədə bir neçə diaspor təşkilatı var. Ona görə də dövlət başçımız tövsiyə edir ki, bu təşkilatlar arasında koordinasiya işi aparılmalıdır, birlik, həmrəylik olmalıdır. Çünki biz vahid amal uğrunda çalışırıq. Dövlət müstəqilliyi, iqtisadi müstəqillik, sosial məsələlərin həlli, ərazi bütövlüyümüzün bərpası, digər məsələlər ətrafında cəmiyyətdə vahid fikir var, konsensus var.

Müvafiq dövlət qurumlarının hesabatlarında göstərilir ki, Dünya Azərbaycanlılarının I Qurultayı Prezident Heydər Əliyevin 23 may 2001-ci il tarixli 724 nömrəli sərəncamına əsasən 2001-ci il noyabrın 9-10-da Bakıda keçirilib. Ulu öndər həmin qurultaydakı nitqində demişdi: "Ötən dövrdə biz Azərbaycanın müstəqilliyini inkişaf etdirmişik və bu gün bəyan edirəm ki, Azərbaycanın müstəqilliyi əbədidir, dönməzdir və daimidir. Əziz dostlar, müstəqil Azərbaycan həmişə sizin dayaq yeriniz olacaq, pənah gətirdiyiniz yer olacaqdır və təbiidir ki, Azərbaycanda biz də sizi özümüzün elçiləri hesab edirik, sizə çox ümidlər bəsləyirik, sizə arxalanırıq, sizi özümüzə dayaq hesab edirik. Müstəqil Azərbaycan dövləti gənc olduğu kimi, Azərbaycanın həmrəyliyi də, dünya azərbaycanlılarının birliyi də, müxtəlif ölkələrdəki Azərbaycan icmaları da gəncdirlər. Ancaq indi biz yeni bir mərhələ keçmişik. Biz formalaşırıq, müstəqilliyimiz möhkəmlənir, xarici ölkələrdə yaşayan azərbaycanlılar daha sürətlə təşkilatlanır və bizim hamımız birlikdə azərbaycançılığı yaşadacağıq, daimi edəcəyik, əbədi edəcəyik".

Fəxrlə deyə bilərik ki, ulu öndərin həmin tövsiyələri həm xaricdə yaşayan soydaşlarımız, həm də Prezident İlham Əliyev tərəfindən yüksək səviyyədə reallaşdırılır. Nəticədə xaricdə yaşayan soydaşlarımızın, təşkilatların fəaliyətinin koordinasiyası, milli həmrəylik və birlik ideyasının reallaşdırılması məhz ümummilli liderimizin arzu etdiyi səviyyəyə qaldırılıb. Məlumat verilir ki, son 4 ildə 31 ölkəni əhatə edən 14 Koordinasiya Şurası yaradılıb, 12 ölkənin 18 şəhərində – Tallin, Varşava, Budapest, Brüssel, Zalsburq, Barselona, Köln, Berlin, Münhen, Kiyev, Odessa, Ankara, İğdır, Qahirə, Saloniki, Tbilisi, Marneuli və Qardabani şəhərlərində Azərbaycan evi açılıb.

Başqa bir fakt. Dövlətimizin Ermənistanın işğalçılıq siyasətinə son qoyulması və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması istiqamətində həyata keçirdiyi siyasi mübarizələr zamanı, eləcə də , 44 günlük Vətən müharibəsi dövründə diaspor təşkilatlarımız dünyanın 30-dan çox olkəsində 200-dək aksiya keçirmişlər. Bu aksiyalarda, ümumilikdə, 25 mindən çox soydaşımız və dost xalqların nümayəndələri iştirak etmiş , 50-dən çox ölkədə fəaliyyət göstərən 300-ə yaxın diaspor təşkilatının adından müxtəlif ölkələrin dövlət və hökumət rəhbərlərinə, parlament üzvlərinə, beynəlxalq təşkilatlara bəyanatlar, müraciətlər göndərilmişdir.

Bütün bunlar sübut edir ki, Dünya Azərbaycanlılarının V Qurultayının çağırılması, üstəlik, bu addımın torpaqlarımızın işğaldan azad olunduğu dövrdə atılması, eləcə də, soydaşlarımızın Ali Məclisinin Şuşada keçirilməsi hər birimiz üçün nəinki arzuolunan, həm də qürurverici faktdır. Qoy dostlarımız da, düşmənlərimiz də görsünlər ki, Prezident İlham Əliyevin məqsədyönlü fəaliyyəti, liderliyi, milli maraqlarımızı qətiyyətlə müdafiə etməsi, düşünülmüş və qətiyyətli siyasəti hər bir soydaşımızın istənilən arzusunun reallaşdırılmasını təmin etmək iqtidarındadır.

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***